**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**MƏHƏMMƏD FÜZULİ adına ƏLYAZMALAR İNSTİTUTU**

***Əlyazması hüququnda***

**HƏSƏNOV ƏKRƏM BƏHRAM OĞLU**

# "SALMAN ƏL-FARİSİNİN ERKƏN İSLAM TARİXİNDƏ ROLU" (MƏHƏMMƏD ƏS-SƏXAVİNİN "ƏT-TƏHSİL VƏL-BƏYAN Fİ SİYAQ QİSSƏTİS-SEYYİD SALMAN" ƏSƏRİ ƏSASINDA)

**7213.01 – "Dinşünaslıq"**

**İlahiyyat üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**BAKI – 2013**

Dissertasiya işi AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitunun Ərəbdilli əlyazmaların tədqiqi şöbəsində yerinə yetirilmişdir.

**Elmi rəhbər**: filologiya elmləri doktoru, dosent
**Kamandar Kazım oğlu Şərifov**

**Rəsmi opponentlər:** fəlsəfə elmləri doktoru, dosent
**Aydın Arif oğlu Əlizadə**

ilahiyyat üzrə fəlsəfə doktoru
**Səbinə Həmid qızı Mirzəyeva**

**Aparıcı təşkilat:** Azərbaycan Dövlət Pedoqoji Universitetinin Fəlsəfə kafedrası

Müdafiə «15» may 2013-cü ildə saat 11:00-da AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun nəzdində yaradılmış Birdəfəlik Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ 1001, Bakı şəhəri, İstiqlaliyyət küçəsi 8, AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu.

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanasında tanış olmaq olar.

Avtoreferat «___» ___________ 2013-cü ildə göndərilmişdir.

**Birdəfəlik Dissertasiya Şurasının elmi katibi**,
**ilahiyyat üzrə fəlsəfə doktoru:**

**Z. A. Əbilova**

# İŞİN ELMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Orta yüzilliklərdə ayrı-ayrı alim və ədiblər tərəfindən yazılmış əsərlər o dövrün elm və mədəniyyət tarixini öyrənmək baxımından ən mötəbər mənbələrdir. "Orta əsr, yeni və ən yeni dövrlərin zəngin tarixi hadisələrini, ictimai, iqtisadi, siyasi vəziyyətini, bu dövrlərin ədəbi-mədəni həyatını öyrənməkdə əlyazmalarının və arxiv sənədlərinin əhəmiyyəti böyükdür"[1].

Bu baxımdan islamın ilk mərhələsi ilə bağlı yazılmış əsərlərin öyrənilməsi daha böyük maraq doğurur. Bu dövrün ictimai-siyasi və mədəni həyatı ilə bağlı olan abidələrin araşdırılması, Məhəmməd Peyğəmbər (s) və onun səhabələrinin islamın qələbəsi uğrunda apardıqları mübarizənin tarixi həqiqətlərinin üzə çıxarılması, Peyğəmbərin (s) öz səhabələrinə göstərdiyi hədsiz isti və doğma münasibətini işıqlandırmaq[2], islam tarixi ilə bağlı deyilmiş yanlış və qərəzli fikirlərin təkzib edilməsi üçün olduqca vacib məsələlərdəndir.

Bu dövrlə bağlı yazılmış əsərlərdən biri də XV əsrin görkəmli ərəb alimi Məhəmməd bin Əbdürrəhman əs-Səxavinin "Ət-Təhsil vəl-bəyan fi siyaq qissətis-seyyid Salman" ("Seyyid Salmanın hekayətinin rəvayətlərinin toplanması və təhkiyəsi") kitabıdır. Bütün şüurlu həyatını elm öyrənməyə və öyrətməyə, eləcə də yazıb yaratmağa sərf etmiş, çoxcəhətli elmi fəaliyyət göstərmiş və özündən sonra zəngin elmi irs qoyub

---

[1] Ə.Əlizadə. Əlyazmaları və arxiv materiallarından istifadə üsulları. – Azərbaycan mətnşünaslığı məsələləri. Bakı, 1979, s.32.

[2] Bax: Yusif Qandəhləvi. Həyatüs-səhabə. Ic., "Xəzər nəşriyyatı", 2010; İbrahim Canan. Peyğamber yıldızları sahabe dünyası. İstanbul, 1996; Mustafa Baktır. İslamda ilk eğitim müessisesi, Ashab-ı Suffa. İstanbul, 1990; Nihat Altıntaş. Dillere dastan sahabiler. İstanbul, 2010; ابن قيم الجوزية، الفوائد، القاهرة؛ خليل عبد الكريم. الصحابة و الصحابة، القاهرة، ١٩٩٧؛ عبد الرحمن رأفت الباشا. صور من حياة الصحابة. السعودية، ١٤١١هـ؛ محمد يوسف الكاندهلوي. حياة الصحابة. دمشق، ١٩٨٩.

getmiş Məhəmməd bin Əbdürrəhman əs-Səxavinin "Ət-Təhsil vəl-bəyan fi siyaq qissətis-seyyid Salman" əsəri Məhəmməd Peyğəmbərin (s) ən məşhur və islamda yüksək məqam sahibi olmuş səhabələrindən Salman əl-Farisiyə həsr edilmişdir.

Alimin bu əsəri islamın təbliği, yayılması və qələbəsi uğrunda müharibələrdə böyük fədakarlıqla iştirak etmiş, Peyğəmbər (s) səhabələrindən biri olan Salman əl-Farisinin haqq dinə, islam və onun Peyğəmbəri Məhəmmədə (s) gedən yolunu işıqlandıran 12 rəvayəti əhatə edir.

Salman əl-Farisinin şəxsiyyətini istər orta əsr alimləri, istərsə də çağdaş tədqiqatçılar yüksək qiymətləndirirlər[3]. Rabi Həmid Zəhruddin onun şəxsiyyətini belə dəyərləndirir: "Biz qəlbləri, ağılları, gözləri, dərrakələri, qulaqları, zəkaları və fikirləri imanla, hikmətlə, möminliklə, elm və mərifətlə dolduran bir adamlarıq. O, parlaq nurdur"[4].

İslamın bu görkəmli şəxsiyyəti haqqında ayrı-ayrı şəxslər tərəfindən onun kimliyini, islama gedən yolunu və islamda rolunu işıqlandıran müxtəlif rəvayətlər söylənilmişdir. Belə bir şəxsiyyətlə bağlı olan rəvayətləri toplayaraq bir kitab şəklinə salınması bir tərəfdən islamın ilk dövrlərində Mədinədə islam icmasının yaranması ilə bağlı tarixi həqiqətlərin dərindən işıqlandırılması, digər tərəfdən isə Salman əl-Farisi şəxsiyyətinin öyrənilməsi baxımından böyük əhəmiyyət kəsb edir. Buna görə də Məkkə alimləri bu rəvayətlərin əhəmiyyətini dərk edərək, onların bir kitab halına salınması üçün dövrün görkəmli alimi olan Məhəmməd bin Əbdürrəhman əs-Səxaviyə müraciət etmişlər. Əs-Səxavi də bu işin nə dərəcədə vacib olduğunu

---

3 ربيع حميد زهر الدين سلمان الفارسى. دمشق، ١٩٩٩؛ العلامة السيد مرتضى العاملى. سلمان الفارسى، قم، ١٤١٤؛ يوسف ابن عبد البر القرتبى. الاستيعاب فى معرفة الاصحاب، بيروت، ١٩٧٨؛ الدكتور حسين مجيب المصرى. الصحابى الجليل سلمان الفارسى. القاهرة، ١٩٧٣؛ صابر عبده ابراهيم. سير اعلم النبلاء. بيروت، ١٩٩٧.

4 ربيع حميد زهرالدين. سلمان الفارسى. دمشق، ١٩٩٩، ص. ٥.

anlayaraq, məmnuniyyətlə razılıq vermişdir[5].

Peyğəmbər (s) səhabələri və ayrı-ayrı şəxslər tərəfindən söylənilmiş və məzmun baxımından biri-birindən fərqlənən bu rəvayətlər indiyədək nə ərəb ölkələrində, nə də başqa ölkələrdə araşdırılmamış, bizim tərəfimizdən bu fərqli cəhətlərin meydana gəlmə səbəbləri müəyyənləşdirilmişdir. Salman əl-Farisi haqqında əsərlər yazmış alimlər, o cümlədən əllamə əs-Seyyid Cəfər Murtaza əl-Amili, doktor Hüseyn Mücib əl-Misri, əl-Qadi Rabi Həmid Zəhrəddin, Sabir Abdoh İbrahim və başqaları əs-Səxavinin tədqiq edilən əsərindən ancaq Abdullah bin Abbasın rəvayətini əsas götürərək, başqa rəvayətlərə toxunmamış və Salman əl-Farisinin haqqa gedən yolunu yalnız bu rəvayət əsasında öyrənmişlər.

Məhəmməd bin Əbdürrəhman əs-Səxavinin "ət-Təhsil vəl-bəyan fi siyaq qissətis-seyyid Salman" əsəri ilk dəfə olaraq tədqiqata cəlb olunur. Bütün deyilənlər bu dissertasiya işi üçün seçilmiş tətqiqat mövzusunun tamamilə aktual olduğunu təsdiq etməyə əsas verir.

Bundan əvvəl nəşr olunmuş kitabda əs-Səxavinin görkəmli bir alim kimi yetişməsini səciyyələndirən dövrü, həyatı və yaradıcılığı haqqında verilmiş məlumatlar çox məhdud olduğuna görə biz həmin sahələri ayrı-ayrı mənbələr əsasında tam genişliyi ilə tədqiq etməyi lazım bildik.

**Tətqiqatın əsas məqsəd və vəzifələri.** Tətqiqat işinin əsas məqsədi Məhəmməd bin Əbdürrəhman əs-Səxavinin indiyədək tədqiq və nəşr olunmamış Amerika Birləşmiş Ştatlarının "Yale" Universitetinin kitabxanasında yeganə əlyazma nüsxəsində saxlanılan "Ət-Təhsil vəl-bəyan fi siyaq qissətis-seyyid Salman" əsərini araşdırmaq, onun elmi yaradıcılığının ərəb mədəniyyəti tarixndə tutduğu yeri müəyyənləşdirməkdir. Bu-

---

5 محمد بن عبد الرحمن السخاوى. التحصيل و البيان فى سياق قصة السيد سلمان. نسخة معهد المخطوطات لدى اكاديمية العلوم الوطنية الاذربيجانية ، KS-400 ص.183b.

nun üçün aşağıdakı vəzifələrin həyata keçirilməsi nəzərdə tutulmuşdur:

- əs-Səxavinin yazıb yaratdığı dövrün ictimai-siyasi və elmi-mədəni mühitini nəzərdən keçirməklə bu mühitin alimin yaradıcılığına təsirini aydınlaşdırmaq;
- əs-Səxavinin həyat yolunun ayrı-ayrı mərhələlərini işıqlandırmaq;
- əs-Səxavinin yaradıcılığını, o cümlədən onun islama və islam tarixinə həsr edilmiş ən məşhur əsərlərinin geniş şərhini vermək;
- Məhəmməd Peyğəmbərin (s) səhabələrinin islamın qələbəsində və yayılmasında rolunu işıqlandırmaq;
- "Ət-Təhsil vəl-bəyan fi siyaq qissətis-seyyid Salman" abidəsinin mövzusunu və mənbələrini araşdırmaq, onun müəllifini müəyyənləşdirmək və əlyazmasının elmi-paleoqrafik xüsusiyyətlərini vermək;
- "Ət-Təhsil vəl-bəyan fi siyaq qissətis-seyyid Salman" əsərinin mətninin mənbələr əsasında tədqiqini həyata keçirərək təshih etmək;
- "Ət-Təhsil vəl-bəyan fi siyaq qissətis-seyyid Salman" əsərində Salman əl-Farisi haqqında verilmiş rəvayətlərin mətninin müqayisəli tədqiqini aparmaq və onların mətnləri arasında fərqli cəhətləri və Salman əl-Farisinin erkən islam tarixində rolunu müəyyənləşdirmək.

**Tədqiqatın nəzəri-metodoloji əsasları.** Dissertasiyanın yazılmasında sosial-funksional və tarixi-müqayisəli metoddan istifadə edilmiş, kompleks tədqiqat üsulu tədbiq edilmişdir. Dissertasiyada Azərbaycan, ərəb, türk, rus və qərb ədəbiyyatı kontekstində tədqiqatın predmeti ilə əlaqədar görkəmli alim və ilahiyyatçıların elmi müddəalarına, fikirlərinə əsaslanılmış, tədqiqat prosesində mövcud elmi nəticələrdən söz açılmışdır. Müəllif internet şəbəkəsindəki materiallardan da istifadə etmişdir.

**Tədqiqatın elmi yeniliyi.** Əs-Səxavinin bir sıra əsərləri tədqiq və nəşr edilsə də onun elmi irsi indiyədək tam öyrənilməmişdir. Təqdim olunan dissertasiya işində əs-Səxavinin yaradıcılığı bütöv şəkildə öyrənilmiş, islama və islam tarixinə həsr edilmiş ayrı-ayrı əsərlərinin ətraflı araşdırmaları verilmişdir.

Əs-Səxavinin "Ət-Təhsil vəl-bəyan fi siyaq qıssətis-seyyid Salman" əsəri Amerika Birləşmiş Ştatları "Yale" universitetinin kitabxanasında saxlanılan yeganə əlyazma nüsxəsi əsasında ilk dəfə tədqiqata cəlb edilərək,

- əsərin mövzusu, elmi əhəmiyyəti öyrənilmiş və onun yazılmasında müəllifin istifadə etdiyi və etmədiyi mənbələr müəyyənləşdirilmiş;
- əsərin mətni orta əsr mənbələri əsasında araşdırılaraq təshih edilmiş;
- əsərdə Salman əl-Farisi haqqında verilmiş 12 rəvayətin mətnləri qarşılıqlı şəkildə tutuşdurularaq, tədqiq edilmiş, rəvayətlərin fərqli cəhətləri müəyyənləşdirilmişdir;
- Peyğəmbər səhabələrinin, o cümlədən Salman əl-Farisinin islamın qələbəsi və yayılmasında rolu işıqlandırılmışdır.

**Tədqiqatın praktik əhəmiyyəti** onunla müəyyən edilir ki, dissertasiyanın başlıca müddüəaları, habelə mövzunun əsas aspektlərinin müfəssəl təhlili sayəsində əldə edilmiş nəticə və tövsiyələr həm də praktiki əhəmiyyət kəsb edir. Dissertasiyanın nəticələri islamın ilk dövrlərində Məhəmməd Peyğəmbərin (s) fəaliyyətinin, mühacirlərin həyat tərzinin və islamın yayılmasında və qüvvətlənməsində onların rolunun, ən məşhur mühacirlərin həyatının öyrənilməsində yardımçı ola bilər, pedoqoji işdə, ali məktəblərin şərqşünaslıq və ilahiyyat fakultələrinin tələbələri üçün islam tarixinə, ən məşhur səhabələrin həyatına və islam əxlaqına dair dərsliklərin hazırlanmasında istifadə oluna bilər.

**İşin aprobasiyası.** İş Azərbaycan Milli Elmlər Akade-

miyası Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun Ərəbdilli əlyazmalar şöbəsində hazırlanmış və şöbə iclasında müzakirə olunaraq müdafiəyə məsləhət görülmüşdür. Dissertasiyanın əsas müddüaları və nəticələri öz əksini müəllifin elmi jurnallarda çap olunmuş məqalələrində və seminarlardakı məruzələrində tapmışdır.

**Dissertasiyanın sturukturu.** Dissertasiya giriş, üç fəsil, nəticə və istifadə edilmiş ədbiyyat siyahısından ibarətdir.

## İŞİN ƏSAS ELMİ MƏZMUNU

Dissertasiyanın giriş hissəsində mövzunun aktuallığı əsaslandırılır, tədqiqatın elmi yenilikləri, məqsəd və vəzifələri, nəzəri və praktiki əhəmiyyəti müəyyənləşdirilir.

**"Əs-Səxavinin dövrü, həyatı və yaradıcılığı"** adlanan I fəsil üç yarımfəsildən ibarətdir. **"Əs-Səxavinin dövrü və həyatı"** adlanan birinci yarımfəsil əs-Səxavinin yaşayıb yaratdığı dövr ikinci Məmlüklər dövlətinin hökmranlığı illərinə təsadüf edir. Əyyubilər orudusunda olan türk əsilli əmirlər tərəfindən Misirdə 1250-ci ildə qurulmuş Məmlüklər dövləti 1517-ci ilə qədər Misirdə hökmranlıq etdi. 1250-1382-ci illər Birinci Bəhriyyə (dəniz) Məmlüklərinin, 1382-1517-ci illər isə İkinci Bürc Məmlüklərinin hökmranlıq dövrü kimi tarixə daxil olmuşdur[6]. İkinci Məmlüklər dövlətinin Misirdə hökmranlıq etdiyi 135 il ərzində 30 sultanı taxta çıxarılmışdır. Şübhə yoxdur ki, belə bir vəziyyət ölkədə olan stabilliyi pozur, iqtisadi vəziyyəti gərginləşdirirdi. Buna baxmayaraq, ölkədə ticarət və mədəniyyət kifayət qədər sürətlə inkişaf edirdi[7].

---

[6] شوقى ضيف. عصر الدول و الامارات. مصر. القاهرة، ١٩٩٥، ص.٣٤؛ حصام محمد الناظور. السلطنة فى دولة المماليك الثانية. عمان، ١٩٩١، ص.٣٤ – ٤٠؛

[7] И.М.Фильштинский. История арабской литературы. X-XVIII века. Москва, 1991, ст.451.

Qahirə və Dəməşq islam dünyasının ən mühüm iki elm mərkəzinə çevrildi. Bu dövrdə Dəməşqdə 160, Qahirədə isə 75-ə yaxın mədrəsələrin fəaliyyətini nəzərə alsaq, onda elmin inkişafına nə dərəcədə əhəmiyyət verildiyi aydın olar. Bu mədrəsələrin zəngin kitabxanaları olmuşdur. Bu dövrdə çoxlu sayda qiraət, təfsir, hədis və fiqh alimləri, İbn Malik, İbn ən-Nəhhas əl-Hələbi, Əbu Həyyan, İbn Hişam, İbn Mənzur, Xalid əl-Əzhəri və başqaları kimi dilçi alimlər, Məhəmməd bin Səid əl-Busiri, Şərafəddin əl-Ənsari, Səfiyəddin əl-Hilli, Şihab Mahmud bin Süleyman, Siracəddin əl-Vərraq, İbn Nubatə əl-Misri kimi şairlər və nasirlər, Əl-Məqrizi, İzzəddin bin Şəddad, Əbul-Fida, İbn Xaldun və başqaları kimi məşhur tarixçilər yetişmişdir.

Misir ərəb mədəniyyətinin görkəmli nümayəndələrindən biri, Şəmsəddin Əbül-Xeyr Məhəmməd bin Əbdürrəhman bin Məhəmməd bin Əbu Bəkr ibn Osman bin Məhəmməd əs-Saxavi belə bir dövrdə yaşayıb elmi fəaliyyət göstərmiş və özündən sonra zəngin elmi irs qoyub getmişdir. O, Qahirə şəhərində dünyaya gəlsə də onun əsli Misirin qərbində yerləşən Kafrüş-Şeyx bölgəsinin mərkəzi olan Səxa şəhərindəndir[8]. Onun əs-Səxavi nisbəsi də onun əcdadlarının vətəni olmuş Səxa şəhərinə nisbətdə verilmişdir. Tarix, hədis, təfsir, ədəbiyyat və başqa elm sahələrində böyük şöhrət qazanmış əs-Səxavi öz əcdadları, özünün həyat yolu və əsərləri haqqında ən böyük həcmli "əd-Daul-ləmi li əhli-l qarni-t-təsi" əsərində ətraflı məlumat vermişdir. O, hicri 831 (1427)-ci ildə Qahirədə ziyalı ailəsində dünyaya gəlmiş və erkən yaşlarından məktəb və mədrəsədə oxumuş, daha sonra isə təhsilini ayrı-ayrı alimlərin yanında davam etdirmişdir. Onun səkkiz yaşı olarkən təlim aldığı ən böyük ustadı dövrünün görkəmli alimi, İbn Həcər əl-

---

[8] الدكتور عمر فروخ. تاريخ الادب العربى. الجزء الثالث. بيروت، ١٩٨٩، ص.٨٩٠؛ عمر رضا كحاله. معجم المؤلفين تراجم مصنفى الكتب العربية. الجزء العاشر. بيروت، ص.١٥٠ – ١٥١.

Əsqalani olmuşdur. Əs-Səxavi ondan 14 il hədis, tarix və fiqh üzrə dərs almışdır. Alimin öz müəllimi ilə keçirdiyi bu 14 il onun həyatının ən mənalı və faydalı dövrü olmuş və əs-Səxavinin bir alim və mədəniyyət tarixinin görkəmli bir nümayəndəsi kimi formalaşmasında çox əlamətdar bir mərhələ olmuşdur.

Məhəmməd bin Əbdürrahman əs-Səxavi İbn Həcər əl-Əsqalaninin vəfatından sonra bir sıra şəhərlərə səfər etmiş və bu şəhərlərdə dövrünün 100-dən çox alimləri ilə görüşərək onların vasitəsilə müəyyən elmi biliklərə, müxtəlif icazə və şəhadətnamələrə yiyələnmiş və Qahirəyə qayıtdıqdan sonra ciddi surətdə təlim-tədris fəaliyyətinə başlamışdır. O, 28 Şaban 902 (30 Aprel 1497)-ci ildə Mədinə şəhərində vəfat etmiş və Peyğəmbər (s) məscidinin yaxınlığındakı əl-Baqi qəbirstanlığında dəfn edilmişdir.

**İkinci yarımfəsil "Əs-Səxavinin yaradıcılığı"** adlanır. Alim yaradıcılığa hələ 20 yaşı tamam olmamış başlamışdır. O, ömrü boyu yazıb yaratmaq həvəsi ilə yaşamış, tarix, hədis, Quran, fiqh, ərəb-dili və başqa elm sahələri üzrə onlarla əsərlər yazmışdır. Onun 200 ədəd əsəri 400 cilddən çox olmuşdur. Əs-Səxavinin ən böyük həcmli "əd-Duul-ləmi li əhlil-qarnittəsi" kitabı hicri IX (miladi XV) yüzilliyin ensiklopediyasıdır. Orada XV yüzillikdə ayrı-ayrı İslam şəhər və ölkələrində yaşayıb yaratmış elm adamlarının və müxtəlif mənsəb sahiblərinin tərcümeyi-halı qələmə alınmışdır. Məhəmməd əs-Səxavinin ən məşhur tarixi əsərlərindən biri də "əl-Elən bit-taubix li mən zəmmə əhlit-tərix" ("Tarix əhlini ittiham edənlərin inkarla elanı") adlı əsəridir. Bu əsər ərəb tarix elminin monimental bir abidəsidir. Adından da göründüyü kimi müəllif bu əsəri tarixi araşdırmaları bu və ya digər tərəfdən tənqid edənlərdən müdafiə məqsədi ilə yazmışdır. Bu tarix bir növ dini araşdırmaların metodologiyasını işıqlandıran köməkçi bir sahə kimi yazılsa da, orada islam tarixi elminin geniş və mükəmməl

şərhi verilmişdir. F. Rozental əsəri ingilis dilinə tərcümə edərək nəşr etdirmişdir. Bundan başqa onun 11 ədəd tarixə həsr olunmuş əsər də vardır (www.almenhaj.net).

Onun "Vaciz-əl-kəlam fiz-zeyl alə duvəl əl-islam" əsəri Məmlüklər dövlətinin tarixini öyrənmək baxımından böyük elmi əhəmiyyət kəsb edən çox dəyərli ensiklopedik bir abidədir.

Hədis elmi onun yaradıcılığında xüsusi yer tutur. Alimin bu sahəyə həsr edilmiş ən böyük əsəri "əl-Məqasidul həsənətu fi bəyan kəsirin minəl-əhadisil-müştəhirəti aləl-əlsinə" adlanır. O, həm tamamilə səhih hədisləri, həm də əsli olmayan hədisləri öz kitabına daxil etmiş və onların sayı 1356 hədisə çatmışdır. Bu mövzuda onun beşdən çox əsəri vardır.

O, özü və müəllimləri haqqında da bir sıra əsərlər yazmışdır.

Əs-Səxavinin yaradıcılığında islamın ilk dövrlərini işıqlandıran, Məhəmməd Peyğəmbər (s) və onun səhabələrinin islam dininin təbliği və qələbəsi uğrunda apardıqları mübarizəni əks etdirən əsərlər də xüsusi yer tutur. Onun bu qəbilədən olan əsərlərinə nümunə olaraq "Richən əl-kəffə fi bəyan nubzətin min əxbər əhl əs-Suffə", "əl-Qoul vəl-bədi fis-salat aləl-həbib", "İsticləb irtiqa əl-ğurəf bi hubbi əqrəba ər-Rəsul və ravi əş-şərəf", "İkməl şərhi kitəb "əs-Sirə ən-nəbəviyyə", "əl-İbtihəc bi əzkər əl-musafir əl-həcc" və başqalarını göstərmək olar. Peyğəmbər səhabələri ilə bağlı yazılmış əsərlərindən biri də "ət-Təhsil vəl-bəyan fi siyaq qissətis-Seyyid Salman" kitabıdır. Bu kitab suffədə yaşamış ən məşhur Peyğəmbər (s) səhabələrindən biri olan Salman əl-Farisinin haqq dinə və onun Peyğəmbərinə (s) qovuşanadək keçdiyi keşməkeşli həyat hekayətini, onun islamın təbliğində və qələbəsində göstərdiyi fəaliyyətini əhatə edir. Tədqiqata cəlb edilmiş bu əsər Peyğəmbər (s) səhabələri ilə bağlı olduğuna görə, səhabələr haqqında qısa da olsa araşdırmalar verməyə ehtiyac duyulur.

Birinci fəslin üçüncü yarımfəsli **"Məhəmməd Peyğəm-**

**bərin (s) səhabələri"** adlanır. Bu tətqiqat işinə cəlb edilmiş əsər islam dininin ilkin mərhələləri ilə bağlı hadisələri əhatə edən və Məhəmməd Peyğəmbərin (s) ən məşhur səhabələrindən biri olan və Peyğəmbər məscidinin yanında yaradılmış suffədə yaşamış Salman əl-Farisiyə həsr edilmişdir. Bütün səhabələrlə birlikdə islamın təbliği və yayılmasında Mədinədə islam icmasının möhkəmləndirilməsində və islamın qələbəsində ciddi rol oynamış bu görkəmli şəxsiyyət islam tarixində böyük iz buraxmışdır. Onun həyatı bu tarixin ilkin dövrlərində Məhəmməd Peyğəmbərin (s) səhabələrinin fəaliyyəti ilə bağlı olduğuna görə onların həyat tərzinə və islamın qələbəsi uğrunda apardıqları mübarizəyə qısa da olsa nəzər salmaq zəruriyyəti ortaya çıxır.

İslam dinini qəbul etmiş müsəlmanlar müşriklərin onlara qarşı törətdikləri işgəncələrdən canlarını qurtarmaq üçün Məkkədə olan var-dövlətini tərk edərək axın-axın Mədinəyə hicrət etməyə başladılar. Məhəmməd Peyğəmbər (s) Mədinə şəhərində yaranan müsəlman icmasının həm dini, həm də dünyəvi başçısı kimi mühacirlərlə ənsarları bir-birlərinin qardaşlarına, qan qohumları kimi bir-birinin varislərinə çevirirdi. Bu da bir tərəfdən mühacirlərin iqtisadi vəziyyətini yaxşılaşdırır, digər tərəfdən isə Mədinədə yaranan islam icmasının monolit birliyini möhkəmləndirirdi. Mühacirlərlə ənsarlar arasında Məhəmməd Peyğəmbərin (s) yaratmış olduğu bu qardaşlıq münasibətləri sayəsində Mədinəyə gəlmiş mühacirləri istər düşdükləri çətin vəziyyətdən çıxmaq üçün, istər onların məskunlaşması, istərsə də lazimi qida məhsulları ilə təmin edilməsi istiqamətində ənsarlar imkanlarında olan hər şeyi öz din qardaşlarından əsirgəmirdilər.

Mədinədə inşa edilən Peyğəmbər məscidinin Mədinədə dövlətin təşəkkülündə və qurulmasında, islam dininin yayılmasında, müsəlman toplumunun təlim-tərbiyəsində, mühacirlərlə ənsarların birləşməsində və müsəlman icmasının güclənməsin-

də fövqalədə dərəcədə böyük xidmətləri olmuşdur. "Peyğəmbər məscidi, müsəlman toplum üçün bir toplantı və məşvərət yeri, bir ədliyə mərkəzi, bir mədəniyyət ve elm ocağı, təlim və tədris edilən bir məktəb olaraq da fəaliyyət göstərmişdir"[9].

Peyğəmbər məscidinə bitişik olan suffədə əsasən evi-eşiyi, ailəsi-uşağı olmayan kasıb müsəlmanlar yaşayır və islamı öyrənirdilər. Bura sadəcə yataqxana olmamış, eyni zamanda elm və irfan ocağı olmuşdur. Bu elm ocağı o dövrün təlim mərkəzi və universiteti adlandırılmışdır[10]. Suffə səhabələrinin ən mühüm vəzifələrindən biri də islamı, Quranı və hədisləri öyrənmək və öyrətmək olmuşdur. Onlar Quran ayələrinin nazil olmasının şahidi olmuş və bu ayələrin mənalarını və təfsirini Peyğəmbərin (s) özündən eşitmişlər. Suffə əhlinin ilk müəllimi olmuş Peyğəmbər (s) onların gündəlik həyatına nəzarət etmiş, nöqsanlarını başa salaraq düzəltmiş, bilmədiklərini isə öyrətmişdir. Suffədə Quran, hədislər və başqa sahələr üzrə çox savadlı insanlar və alimlər yetişmişdir. Səhabələr islamın ən mötəbər və ən fəzilətli şəxsiyyətlərindən olmuş, onlarla bağlı nazil olmuş çoxlu sayda Quran ayələri və deyilmiş Peyğəmbər (s) hədisləri vardır.

Dissertasiyanın **"ət-Təhsil vəl-bəyan fi siyaq qissətis-Seyyid Salman"** əsərinin mövzusu və əlyazmasının elmi-paleoqrafik xüsusiyyətləri" adlanan ikinci fəsli üç yarımfəsildən ibarətdir. **"Ət-Təhsil vəl-bəyan fi siyaq qissatis-Seyyid Salman"** əsərinin mövzusu" adlanan birinci yarımfəsil Salman əl-Farisi və onun islamdakı mövqeyinə həsr edilmişdir. İslamda yüksək məqam sahibi olmuş, islamın təbliği, yayılması və qələbəsi uğrunda müharibələrdə böyük fədakarlıqla iştirak etmiş, Məhəmməd Peyğəmbərin (s) ən məşhur səhabələrindən biri olan Salman əl-Farisinin haqq dinə, islama və onun Peyğəmbəri Məhəmmədə (s) gedən yolunu işıqlandıran bu əsər 12 rə-

---

[9] Həmidullah Muhammed. İslam peyğamberi. IIc., İstanbul,1980, s.299.
[10] İbrahim Canan. Kutubi sitta tarcumesi. Ic., Ankara, 1995, s.435.

vayəti əhatə edir. Salman əl-Farisi zühd və təqvada, ibadət və cihadda, elm və ibadətdə, iman və ixlasda, təvazökarklıq və sadəlikdə, ədalət və kamalda mömin bir müsəlman kimi fərqlənmiş, Məhəmməd Peyğəmbərin (s), onun səhabələrinin, eləcə də bütün müsəlmanların böyük məhəbbətini qazanmışdır. Salman əl-Farisi islam tarixində yüksək məqam sahibi kimi tanınsa da onun atası, özü və doğulduğu yer ilə bağlı mənbələrdə verilmiş məlumatlar çox ziddiyyətlidir. Orta əsr mənbələrində və çağdaş tədqiqatlarda onun adı Ruzbə, Mabih, Ruzbeh, Mahbeh (Mayeh), Mahbe, Mabifeh, atasının adı Buzaxşan, Buzehmeşan və Musa kimi, doğulduqları yer isə İsfahanın Cəyy, yaxud Cəyan, yaxud da Raməhrumaz kəndində doğulduğu deyilir. Aparılan tədqiqatlardan belə qənaətə gəlmək olar ki, Salman əl-Farisi təqribən 576-cı ildə anadan olmuş, 656-cı ildə isə vəfat etmiş və təqribən 80 il ömür sürmüşdür. Onun hətta 250 və ya 350 il ömür sürdüyünü yazan mənbələr də vardır[11].

Məkkə müşriklərinin böyük qüvvə ilə Mədinə üzərinə gələrkən Peyğəmbər şəhərin müdafiəsini təşkil etmək üçün səhabələri məşvərətə çağırır. Bu zaman Salman belə bir təklif verir: "Mühasirə döyüşündə ən əmin vasitə şəhərin ətrafına dəyirmi xəndəklər qazaraq, düşmənin keçməsinə mane olmaqdır. Bu vasitə ilə qüvvələr hərb meydanında dağıdılmadan bir yerə toplanır, içəridən müdafiə asanlaşır"[12].

Hicrətin 5 (626) -ci ilində Məkkə müşriklərinin hücumuna qarşı baş vermiş bu müharibə islam tarixində Xəndək döyüşü غزوة الخندق (ğazvətül-xəndək) adı ilə şöhrət tapmışdır. Qureyşilərə dəstə-dəstə ərəb və yəhudi qəbilələri qoşulduğu üçün bu müharibə eyni zamanda dəstələr döyüşü غزوة الاخزاب (ğəzvətül-əhzəb) adını da almışdır[13]. Bu müharibədə Salmanın

---

[11] İslam alimleri ansiklopedisi. IIc., İstanbul, s.90-97.
[12] Əli Himmət Bərkl, Osman Kəsikoğlu. Xatimul-ənbiya həzrəti Məhəmməd və həyatı. Ankara, 1997, s.29.
[13] R.Əliyev. İslam. Bakı, 2000, s.205.

göstərdiyi xidmətlərə və əzmkarlıqlara görə Peyğəmbər (s) onu Salmanul-Xeyr (xeyirli Salman) adlandırmışdır. O, Peyğəmbərin (s) ən yaxın səhabələrindən olmuş və bəzi gecələr onun yanında qalaraq saatlarla söhbət edərmiş.

Salmanın özü fars olduğuna görə İran xalqının adət və ənənələrini, eləcə də fars dilini gözəl bildiyinə görə İranın fəthində müsəlmanlara yaxından kömək etmişdir. İranın fəthi başa çatdırıldıqdan sonra Ömər bin əl-Xəttab Salmanı Mədain şəhərinə vali təyin edir. Salman əl-Farisi Allahın Rəsulundan (s) öyrəndiyi elmi bilikləri öz tələbələrinə öyrətmiş və onların zəmanəsinin alimi və müəllimi kimi yetişməsində böyük əmək sərf etmişdir.

Qəlbi yalnız Allah və Onun elçisi Məhəmməd Peyğəmbərə (s) olan məhəbbətlə döyünən Salman əl-Farisinin dünya malında gözü olmamış, əlinə gələn malı-pulu Allah rizası üçün kasıblara paylamışdır. Salman Mədaində vali olarkən maaşı 5000 dirhəm olmuşdur. O, küçəyə çıxanda maaşını kasıblara və ehtiyacı olanlara paylayaraq, özündə palma yarpaqları almaq üçün ancaq bir dirhəm saxlayarmış. Sonra bütün günü bir dirhəmə aldığı palma yarpaqlarından səbət toxuyaraq, onu üç dirhəmə satarmış. Üç dirhəmin birini uşaqlarına xərcləyərmiş, birini isə sədəqə verərmiş. Qalan bir dirhəminə isə yenə səbət toxumaq üçün palma yarpaqları alarmış. İnsanlar ondan niyə belə etdiyini soruşduqda deyərmiş: "Mən əlimin əməyi ilə qidalanmağı çox sevirəm"[14].

Salman əl-Farisinin islamda tutduğu yerdən bəhs edən, onu tərifləyən və onun fəzilətinə işarə edən bir sıra hədislər və əhvalatlar verilir.

**"Ət-Təhsil vəl-bəyan fi siyaq qissətis-seyyid Salman" əsərinin mənbələri və əhəmiyyəti"** adlanan ikinci yarımfəsildə bu əsərin yazılmasında əs-Səxavinin istifadə etdiyi mənbə-

---

[14] صابر عبده ابراهيم. سير اعلم النبلاء. بيروت، ١٩٩٧، ص. ٥٦.

lər və tarix kitabları müəyyənləşdirilmiş və həmin mənbələrin qısa şərhləri verilmişdir.

Eyni zamanda əsərin yazılmasında istifadə edilməmiş mənbələr də müəyyənləşdirilərək siyahısı verilmişdir. Deyilənlərlə yanaşı Əs-Saxavinin bu əsəri Salman əl-Farisinin özü, onun Peyğəmbər (s) və səhabələri ilə əlaqələri, onun şəxsiyyəti, islam dini tarixində tutduğu yeri və fəzilətləri haqqında ətraflı məlumat verilir və oradakı coğrafi adlar və müxtəlif qəbilələr haqqında verilən bilgilər də diqqətə çatdırılır.

Əs-Səxavi Salman haqqında hekayətin bəzi rəvayətlərini zəmanəmizədək çatmamış bir sıra orta əsr mənbələrindən vermişdir ki, bu da həmin mənbələrin öyrənilməsi baxımından az əhəmiyyət kəsb etmir. Tədqiqatda həmin mənbələrin siyahısı da verilmişdir. Əs-Səxavinin bu əsəri yazmaqda istifadə etdiyi və istifadə etmədiyi orta əsr mənbələrinin müəyyənləşdirilməsi aparılan geniş araşdırmalar sayəsində mümkün olmuşdur.

**“Ət-Təhsil vəl-bəyan fi siyaq qissətis-Seyyid əs-Salman” əsərinin əlyazmasının elmi-paleoqrafik xüsusiyyətləri”** adlanan üçüncü yarımfəsildə öyrənilən əsərin əlyazma nüsxəsinin[15] paleoqrafik xüsusiyyətləri öyrənilir və abidənin müəllifinin dəqiq müəyyənləşdirilməsi üzrə araşdırmalar aparılır. Klassik ədəbiyyatda bu və ya digər əsərin həqiqi müəllifinin müəyyənləşdirilməsi ən çətin və mürəkkəb problemlərindəndir[16].

Qərbdə və Şərqdə işıq üzü görmüş onlarla kataloqlar üzərində aparılmış araşdırmalar nəticəsində bu əsərin yeganə əlyazma nüsxəsinin Amerika Birləşmiş Ştatlarının “Yale” Universitetinin kitabxanasında[17] saxlandığı aşkar edilmiş və bu

---

[15] محمد بن عبد الرحمن السخاوى. التحصيل و البيان فى سياق قصة السيد السلمان. نسخة معهد المخطوطات لدى اكاديمية العلوم الوطنية الاذربيجانية، KS-400

[16] K.Şərifli. Mətnşünaslığın nəzəri əsasları. Bakı, 2011, s.236.

[17] محمد بن عبد الرحمن السخاوى. التحصيل و البيان فى سياق قصة السيد سلمان. نسخة مخطوطة فى مكتبة جامعة “Yale” فى الولايات المتحدة الامريكية، رقم ٢٣٤.

əlyazmada verilmiş katib qeydləri əsərin doğrudan da əs-Səxaviyə mənsub olduğu haqqında məlumat vermişdir. Əsərin əs-Səxaviyə mənsub olduğunu tədqiqata cəlb edilmiş alimin öz əsərləri, ilk mənbələr, ayrı-ayrı məxəzlər və müasir tədqiqatlar onun doğrudan da Əs-Səxaviyə mənsub olduğunu göstərir və heç bir şəkk-şübhə yaratmır.

Əs-Səxavi özünün ensiklopedik əsəri olan "Əd-Daul-ləmi li əhlil-qarni ət-təsi" kitabında öz tərcümeyi halını yazarkən orada əsərlərinin siyahısını tərtib etmişdir. Həmin siyahıda Əs-Səxavinin haqqında danışdığımız bu əsəri də qeyd edilmişdir[18].

Əs-Səxavi qısa müqəddimədən sonra vərəq əsərinin növbəti başlığına keçir və onu belə adlandırır: "Salman əl-Farisinin islamı qəbul etməsinin hekayəti".

Alim əsərin bu hissəsində Salman əl-Farisi şəxsiyyətini çox yüksək məzmun daşıyan ifadələrlə səciyyələndirmişdir. Əs-Səxavi əsərini davam edərək yazır ki, Salman əl-Farisinin islamı qəbul etməsilə bağlı hekayətlər zəmanəmizədək bir qrup səhabələr və başqaları tərəfindən çatdırılmışdır. Onlar Bureydə bin Huseyyib əl-Əsləmi, Abdullah bin Abbas, Əbi ət-Tufeyl Amir bin Vasilə, Səid bin əl-Museyyib, Sələmə əl-Acali, Şurahbil bin Simt, Əbu əl-Baxtari ət-Tai, Əbu Sələmə bin Əbdürrahman, Qurra əl-Kindi, Əbu Osman ən-Nəhdi, Əbdül-Qeys qəbiləsindən bir kişi və başqalarıdır. Daha sonra adları çəkilən səhabələrin və başqalarının ardıcıl şəkildə Salman əl-Farisinin islamı qəbul etməsi haqqında rəvayətləri verilir. Əsərin mətni narın nəsx xətti ilə yazılsa da, rəvayətlərin başlıqları iri və qalın şriftli nəsx xətti ilə yazılmışdır. Bütün abzasların sonunda bir növ fikrin başa çatdığını göstərən və durğu işarəsi kimi istifadə edilmiş böyük həcmli, dairə kimi nöqtələr qoyulmuşdur. Əlyazmasında olan şərti işarələr "ayrı-ayrı ərəb hərf-

---

[18] محمد بن عبد الرحمن السخاوى. الضوء اللامع لا هل القرن التاسع. الجلد الثامن. بيروت، ص.١٥ – ١٩.

lərindən, hərf birləşmələrindən və müxtəlif əlamətlərdən ibarətdir". Əsərin əlyazmasının 183a, vərəqinin yuxarı hissəsində, Şərq əlyazmalarına xas olan üçbucaq şəklində ünvan yazılmışdır. Ünvan isə katib tərəfindən yox, Əs-Səxavinin öz əli ilə yazılmışdır. Əlyazmanın əvvəlində əsərə yazılmış ünvanın sol tərəfində isə narın, oxunaqlı nəsx xətti ilə, əs-Səxavinin tədqiq etdiyimiz əsərinin daxil olduğu əlyazma məcmuəsinin sahibinin qeydi verilmişdir. Əsərin mətni 183b vərəqindən başlayır, 208a-208b vərəqlərində isə sona çatır.

Əsərin əlyazmasının sonluğunda İbn Fəhdin verdiyi məlumatdan aydın olur ki, Əs-Səxəvi bu əsəri çox sürətlə, yəni tələsik 1455-ci ildə yazıb başa çatdırmışdır. Görünür ki, onun əsəri belə tələsik yazmasının səbəbi Məkkədən edilmiş sifarişlə bağlı olmuşdur.

"**Ət-Təhsil vəl-bəyan fi siyaq qissatis-Seyyid Salman"** əsərinin tədqiqi" adlanan üçüncü fəsil iki yarımfəsildən ibarətdir. **"Ət-Təhsil vəl-bəyan fi siyaq qissətis-Seyyid Salman"** əsərinin mənbələr əsasında tədqiqi" adlanan birinci yarımfəsil mətnin orta əsr mənbələri əsasında təshihinə həsr edilmişdir. Elm aləminə yaxşı məlumdur ki, orta yüzilliklərdə yaşayıb yaratmış klassiklərin elmi və bədii əsərləri ayrı-ayrı ədəbi və dini cərəyanlara mənsub olan, eləcə də müxtəlif bilik səviyyələrinə yiyələnən katib və xəttatlar tərəfindən nüsxədən nüsxəyə, kitabdan-kitaba köçürülərək, çoxaldılan zaman çoxlu miqdarda təhriflərə, dəyişmələrə, ixtisarlara və əlavələrə məruz qalmışdır. Odur ki, bu və ya digər klassikin hər-hansı bir əsəri kütləvi surətdə nəşr olunmazdan əvvəl, həmin əsərin mətni araşdırılaraq təshih edilməlidir.

Əsərin ilk dəfə olaraq tədqiqata cəlb olunmasını nəzərə alaraq, Salman əl-Farisinin həyat yolunu işıqlandıran 12 müxtəlif rəvayətlərin mətnlərini tədqiq edərək, onların arasında olan fərqli cəhətləri müəyyənləşdirmək və onlardan hansının daha kamil və həqiqətə uyğun olduğunu elmi araşdırmalarla

əsaslandırmaq olmuşdur. Tarixi həqiqətlərin ortaya çıxarılması üçün bu qəbildən olan əsərlərin tədqiqi və təshihi böyük elmi əhəmiyyət kəsb edir.

Tədqiqata cəlb olunmuş bu əsərin mətninin araşdırılması üçün hər şeydən öncə müəllifin dövrü, həyatı və yaradıcılığı, eləcə də onun müasirləri, şeyxləri və tələbələri ilə əlaqələri dərindən öyrənilmiş və onun elmi üslubu müəyyənləşdirilmişdir. Bununla bərabər tətqiqata cəlb olunmuş əsərin yaranma tarixi və məxəzləri araşdırılmışdır. Lakin əsərin mətninin tədqiqində bir çətinlik meydana çıxmışdır ki, o da əsərin dövrümüzədək yalnız bir əlyazma nüsxəsində gəlib çatmasındadır. Bir əlyazma nüsxəsi əsasında əsərin mətnini tədqiq etmək üçün, tətqiqatçı ərəb və islam tarixini, Məhəmməd Peyğəmbərin (s) həyat və fəaliyyətini, onun səhabələrini, şərafətli Peyğəmbər hədislərini və onların isnadlarını, məzhəb və təriqətləri, Quranı, ümumiyyətlə islamşünaslığı dərindən bilməlidir. Məhz bu biliklərə yiyələnən tətqiqatçı Əs-Səxavinin "ət-Təhsil vəl-bəyan fi siyaq qissatis-Seyyid Salman" əsərini yaxşı mənimsəyib, onun mətnini düzgün araşdıra bilər. Əks təqdirdə aparılan tətqiqat işi uğurlu ola bilməz.

Aparılan geniş araşdırmalar nəticəsində müəyyənləşdirilmişdir ki, əsərin mətnində yol verilmiş nöqsanların bir qismi katibin diqqətsizliyi ucundan meydana gəlmiş, mətn köçürülərkən bir sıra ön qoşmalar, sözlər, xüsusi adlar səhv yazılmışdır. Bir sıra hallarda isə ədatların, feillərin mətndən düşdüyü, yaxud nöqsanlı yazıldığı, bitişən əvəzliklərin yazılmasında xətalara yol verildiyi, ayrı-ayrı hissələrin mətndən düşdüyü aşkar edilmişdir.

**"Ət-Təhsil vəl-bəyan fi siyaq qıssətis-seyyidis-Salman" əsərindəki rəvayətlərin tədqiqi"** adlanan üçüncü yarımfəsil əsərdə olan 12 rəvayətin araşdırılmasına həsr edilmişdir. Əsərin müqəddiməsində verilmiş həmd və təsliyədən sonra müəllif əsərin yazılma səbəbini nəzərə çatdırır. Bundan son-

ra Salman əl-Farisinin islamı qəbul etməsi heykayətini başlayır. Qısa girişdən sonra müəllif aşağıdakı Peyğəmbər (s) hədisini nəzərə çatdırır:

ان الله يحب من اصحابى اربعة[19]

"Həqiqətən Allah mənim səhabələrimdən dördünü sevir". Onlar imam Əli, Əbu Zərr əl-Ğifari, Salman əl-Farisi və Miqdad bin Əmrdir.

Bundan sonra isə Əli bin Əbu Talibdən Əbu Yələ əl-Mosulinin rəvayət etdiyi aşağıdakı hədis verilmişdir:

سلمان منّا اهل البيت و هو ناصح فاتخذه لنفسك [20]

"Salman bizdən əhlul-beytdəndir. O, səmimi məsləhət verəndir. Sən onu özün üçün seç".

Bunun ardınca isə Peyğəmbərin (s) Əbu Dərdaya dediyi hədis gəlir:

سلمان افقه منك [21]

"Salman səndən daha yaxşı fəqihdir".

Əsərdə verilmiş bu Peyğəmbər (s) hədisləri Salman əl-Farisinin islamdakı mövqeyini və rolunu işıqlandıran ən dəyərli və dərin mənalar kəsb edən kəlamlardır. Onun əhli-beytə aid edilməsi Salman əl-Farisi şəxsiyyətinə verilmiş ən yüksək qiymətdir.

Əs-Səxavi yazır ki, Salmanın ilk iştirak etdiyi müharibə "Xəndək" müharibəsi olmuşdur. Bunun ardınca o, Yusif bin Əbdülbərrin "əl-İstiab" əsərinə istinad edərək[22] yazır ki, "Deyirlər ki, Salman "Bədr" müharibəsində iştirak etmişdir"[23].

Sonra müəllif səhabələrdən ibarət bir qrup insanların, eləcə də başqalarının Salmandan rəvayət etdikləri 12 rəvayət

---

[19] محمد عبد الرحمن السخاوى. التحصيل و البيان فى سياق قصة السيد سلمان نسخة معهد المخطوطات KS-400 ، ورق184b (sonralar "ət-Təfsir əl-bəyan")

[20] Yenə orada, vərəq 184b.

[21] Yenə orada, vərəq 184b.

[22] يوسف ابن عبد البر القرتبى. الاستيعاب الجلد الثانى مصر، ١٣٢٨، ص.٥٨.

[23] Əs-Səxavi. Ət-Təhsil vəl-bəyan..." əsərinin Bakı nüsxəsi, vərəq 184b.

müəlliflərinin yuxarıda qeyd edilən adları verilir. Əsərdəki rəvayət sahiblərinin rəvayətləri biri-birindən bu və ya digər dərəcədə fərqləndiyindən Salman haqqında əsərlər yazmış çağdaş alimlər Abdullah ibn Abbasın rəvayətinə əsaslanaraq, digər rəvayətlərə münasibət bildirməmişlər. Əs-Səxavinin qeyd etdiyi kimi Abdulla ibn Abbasın rəvayəti daha geniş, daha kamil və daha doğrudur. Bu rəvayətlərin bəzisində Salmanın doğulduğu yer İsfəhanın Cəyy kəndi, bəzisində Ramahurmaz və dini inancının atəşpərəst olduğu qeyd edilir. Əbu ət-Tufeylin rəvayətində isə ala ata sitayiş etdiyi deyilir. Aparılan araşdırmalara əsasən belə qənaətə gəlmək olar ki, onun vətəni İsfahanın Cəyy kəndi, ilkin adı Ruzbeh, atası isə dehqan olmuşdur. Fransız alimi Huart əsassız olaraq onun xaçpərəst olduğunu söyləyir. Salmanın xaçpərəstlik dini ilə ilk tanışlığı da rəvayətlərdə fərqli şəkildə verilir. Bu fərqlər özünü nəinki ayrı-ayrı rəvayətlər arasında, eyni zamanda bir rəvayət daxilində də göstərir. Belə ki, Səid bin əl-Musayyib biri-birindən fərqlənən iki rəvayət, Əbu Tufeyl Amir bin Vasilə isə ayrı-ayrı məzmunda üç rəvayət söyləmişdir.

Salman əl-Farisinin haqqa doğru gələn yolu müxtəlif yerlərdən və şəhərlərdən, o cümlədən Şam, Mosul, Amuriyyə, Nəsibin, əl-Cəzirə, Büytül-Müqəddəs, dağlar, Məkkə və Mədinədən keçir. Əgər Abdullah bin Abbasın (r.a) rəvayətində Salman (r.a) əvvəlcə Şam şəhərinə, sonra Mosula, Amuriyyəyə, Məkkəyə və nəhayət gəlib Mədinəyə çatdığı rəvayət olunursa, digər rəvayətlərdə fərqlidir. Əbu Tufeyl bin Amir Vasilənin rəvayətində Şam şəhərinin, Rum torpağının və Məkkə şəhərinin adı çəkilirsə, Zeyd bin Suhanın rəvayətində Salmanın dağda ibadət edən insanların yanına getdiyi, sonra isə Mosula, ardınca yenə dağlara qalxdığı, daha sonra isə Beytül-Müqəddəsə, Məkkəyə və Təhamə torpağına gəlib çatdığı göstərilir. Səid bin əl-Müsəyyibin rəvayətində ancaq Şam və Mədinə şəhərlərinin, Sələmə əl-İclinin rəvayətində əl-Cəzirə, Nəsibin, dağda-

kı mağara, Beytül-Müqəddəs və Mədinənin adı çəkilir. Şurahbilin rəvayətində heç bir şəhər adı çəkilmirsə, Əbul-Bəxtəri ət-Tainin rəvayətində ancaq Şam şəhərinin adı, Əbu Sələmə bin Əbdürrəhmanın rəvayətində dağdakı mağara, Nəsibin, Büytül-Müqəddəs və Mədinə, Əbül-Qürrənin rəvayətində Büytül-Müqəddəs və Mədinə, kimliyi məlum olmayan şəxsin rəvayətində isə Amuriyyə və Şamın adları göstərilir.

Adları göstərilən rəvayətlərin hər birində Salman əl-Farisinin Mədinə istiqamətində hərəkət xətti və olduğu şəhərlər biri-birindən çox fərqlənir. Əgər bu rəvayətlər doğrudanda Salman əl-Farisinin dilindən deyildiyi kimi olsaydı, bu zaman həmin rəvayətlər arasında bu qədər fərqlər ola bilməzdi. Bu nəinki bizdə, hətta Məhəmməd əs-Səxavinin özündə şübhə doğurmuşdur. Səid bin əl-Müsəyyibin rəvayətinin sonunda Məhəmməd əs-Səxavi belə yazır: - Əgər Səid bunu, yəni rəvayətdə deyilənləri Salmandan eşidibsə, bu, düzgün isnaddır. Düzünü Allah bilir[24].

Salman əl-Farisinin dağda mağarada yaşayıb, ibadət edənlərin yanına getməsi, Beytül-Müqəddəsdə və Nəsibin şəhərində olması yalnız Sələmə əl-İclinin və Əbu Sələmə bin Əbdürrəhmanın rəvayətlərində qeyd edilmişdir. Digər rəvayətlərdə isə bu haqda heç bir məlumat verilmir. Zeyd bin Suhanın rəvayətində də Salman əl-Farisinin dağda ibadət edən insanların yanına getməsi və Büytül-Müqəddəsdə olması haqqında bilgilər verilsə də onun rəvayəti Sələmə əl-İclinin və Əbu Sələmə bin Əbdürrəhmanın rəvayətlərindən fərqlənir və onun rəvayətində Nasibin şəhərinin adı çəkilmir. Əbu Qurrənin rəvayətində isə Salman əl-Farisinin yalnız Beytül-Müqəddəsə gəlməsi haqqında məlumat verilir. Salman əl-Farisinin əl-Cəzirədə olması haqqında isə ancaq Əbu Tufeylin və Sələmə əl-İclinin rəvayətlərində təsadüf olunur.

---

[24] Əs-Səxavi. Ət-Təhsil vəl-bəyan...” əsərinin Bakı nüsxəsi, vərəq 198b.

Salman əl-Farisinin gəlib Mədinə şəhərinə çatana kimi olduğu yerlər və şəhərlər yuxarıda göstərilən rəvayətlərdə çox ciddi şəkildə fərqlənməsinə baxmayaraq, çox güman ki, o bu yer və şəhərlərin çoxunda olub. Lakin rəvayətləri oxuduqdan sonra belə qənaətə gəlmək olar ki, rəvayətlərdə adları çəkilən bəzi yerlər və şəhərlər oraya sonradan onun haqqında rəvayətlər şifahi şəkildə yayılarkən əlavə edilmişdir. Bunu Salman əl-Farisi haqqında Məhəmməd əs-Səxavinin topladığı rəvayətlərin biri-birindən fərqlənən məzmunu da göstərir.

İslamı qəbul edənə qədər uzun keşməkeşli yol keçmiş, qul taleyi yaşamış və nəticədə islamda yüksək məqam sahibi olmuş Salman əl-Farisi haqqında müxtəlif rəvayətlər yaradılmış və bu rəvayətlərə zaman-zaman müxtəlif əlavələr edildiyindən həmin rəvayətlərin biri-birindən fərqlənən variantları meydana gəlmişdir. Bu variantlar da sonralar ayrı-ayrı mənbələrdə öz əksini tapmışdır. Ona görə də Salman əl-Farisi haqqında əsər yazmış ayrı-ayrı çağdaş müəlliflər onun haqqında Abdullah bin Abbasın rəvayətini əsas götürərək, başqa rəvayətlərə toxunmamış və heç bir münasibət bildirməmişlər.

Dissertasiyanın əsas məzmunu müəllifin aşağıdakı əsərlərində öz əksni tapmışdır:

1. Alimlərin fəziləti. Şirvaninin 880 illiyinə həsr edilmiş orta əsr əlyazmaları və Azərbaycan mədəniyyəti tarixi problemləri, X Respublika Elmi-nəzəri konfransının materialları. Bakı – "Nurlan", 2006, səh.234.
2. İslamın ilkin şəxsiyyətləri və Salman əl-Farisi. Orta əsr əlyazmaları və Azərbaycan mədəniyyəti tarixi problemləri. Bakı – "Nurlan", 2008, səh.325.
3. Allah elçisinin sevimli səhabəsi. Dövlət və din. Bakı – iyul – avqust 2009, səh.185.
4. “ət-Təhsil vəl-bəyan fi siyaq qissəti əs-Seyyid əs-Səlman” əsərinin əlyazmasının elmi paleoqrafik xüsusiy-

yətləri. Filologiya məsələləri. Bakı – “Elm və Təhsil” nəşriyyatı. 2009, səh.484.

5. Quran və hədislər Məhəmməd peyğəmbər haqqında. Aida İmanquliyevanın 70 illik yubileyinə həsr edilmiş “Şərqşünaslığın aktual problemləri” mövzusunda Respublika elmi konfransının materialları. Bakı – 2009, səh.226.
6. İslama görə dinin qaynağı. Dövlət və din. Bakı – Aprel – 2009, səh.139.
7. “ət-Təhsil vəl-bəyan fi siyaq qissətis-Seyyid əs-Səlman” əsərinin əlyazmasının elmi paleoqrafik xüsusiyyətləri. Orta əsr əlyazmaları və Azərbaycan mədəniyyəti tarixi problemləri. Bakı – "Nurlan" – 2011, səh.385.
8. Салман аль-Фариси в работе Мухаммада бин Абдиррахмана ас-Сахави. Национальний педогогічний університет імени М.П.Драгоманова, Українська Академия Наук, Тілея, Науковий вісник, Випуск 59 (№4), Кіев – 2012, с. 608.
9. Məhəmməd bin Əbdürrəhman Əs-Səxavinin “Ət-təhsil vəl-bəyan fi siyaq qissətis-seyyidis-Səlman” əsəri Səlman əl-Farisi haqqında, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, Mədəniyyət Dünyası, XXII, Bakı-2012, səh.150.
10. “Salman əl-Farisinin öz dilindən həyatı”, Geostrotologiya jurnalında çapda

Гасанов Акрам Бахрам оглу

Роль Салмана аль-Фариси в истории раннего ислама
(на основе произведения Мухаммеда ас-Сахави «ат-Тахсил валь-байан фи сийаг гыссатис-сейид Салман»)

## РЕЗЮМЕ

Диссертационная работа посвящена изучению роли одного из самых известных сподвижников пророка Мухаммеда (д.б.А.н.) Салмана аль-Фариси в пропаганде, укреплении и победе ислама на основе произведения египетского ученого XV века Мухаммеда бин Абд ар-Рахмана ас-Сахави «ат-Тахсил валь-байан фи сийаг гыссатис-сейид Салман».

Данная диссертация состоит из введения, трёх глав, заключения и списка использованной литературы.

Во введении обосновывается научная актуальность темы, определяются цель и задачи, даются сведения о научной новизне, научно-практическом значении, методологических основах и структуре диссертации.

В первой главе на основе средневековых источников и произведений самого ученого обстоятельно исследуются период, жизнь и творчество Мухаммеда бин Абд ар-Рахмана ас-Сахави и некоторые вопросы, касающиеся сподвижников Пророка (д.б.А.п.).

Во второй главе исследуются тема, источники, значение, а также научно-палеографические особенности единственного рукописного экземпляра произведения ас-Сахави «Тахсил валь-байан фи сийаг гыссатис-сейид Салман».

В третьей главе в результате исследований текста произведения «ат-Тахсил валь-байан фи сийаг гыссатис-сеййид Салман» на основе средневековых источников выявлены допущенные ошибки и сокращения, а также определены место и роль Салмана аль-Фариси в исламе на основе тщательного расследования 12 сказаний о его жизни.

В заключении обобщены результаты проведённых исследований.

Hasanov Akram Bahram

The role of Salman al-Farisi in the history of early Islam
(on base of "at-Tahsil val-bayan fi siyag gissatis-seyyid Salman" by Muhammad as-Sahavi)

SUMMARY

The dissertation work is dedicated to the study of one of Prophet Muhammad`s (s) most famous adherents Salman al-Farisi`s role in propaganda, strengthening and victory of Islam on base of "at-Tahsil val-bayan fi siyag gissatis-seyyid Salman" by XV century Egyptian scholar Muhammad Abd ar-Rahman as-Sahavi.

The given dissertation consists of the introduction, three chapters, conclusion and the list of used literature.

In the introduction scientific actuality of the theme is grounded, the aim and tasks are determined, scientific novelty, scientific-paleographic significance, methodological basis and structure of the dissertation are shown.

In the first chapter the period, life and creation of Muhammad bin Abd ar-Rahman as-Sahavi and some matters concerning Prophet's (s) adherents are thoroughly investigated on base of medieval sources and the author's works.

In the second chapter the theme, sources, significance and also scientific-paleographic peculiarities of single manuscript copy of "at-Tahsil val-bayan fi siyag gissatis-seyyid Salman" by as-Sahavi are investigated.

In the third chapter the mistakes and abbreviations, the words and expressions fallen from the text are revealed in the result of investigations of "at-Tahsil val-bayan fi siyag gissatis-seyyid Salman", also the place and role of Salman al-Farisi are determined on base of thorough research of 12 legends about his life.

In the conclusion the results of carried out researches have been summarized.

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ РУКОПИСЕЙ имени МУХАММЕДА ФИЗУЛИ**

*На правах рукописи*

**ГАСАНОВ АКРАМ БАХРАМ ОГЛЫ**

# «РОЛЬ САЛМАНА АЛЬ-ФАРИСИ В ИСТОРИИ РАННЕГО ИСЛАМА» (НА ОСНОВЕ ПРОИЗВЕДЕНИЯ МУХАММЕДА АС-САХАВИ «АТ-ТАХСИЛ ВАЛЬ-БАЙАН ФИ СИЙАГ ГЫССАТИС-СЕЙИД САЛМАН»)

**7213.01 – «Религиоведение»**

## А В Т О Р Е Ф Е Р А Т

**Диссертации на соискание ученой степени доктора философии по богословию**

**БАКУ – 2013**

Direktor: Şirindil Alışanlı
Texniki redaktor: Səbuhi Qəhrəmanov

Formatı 60x84 $^{1}/_{16}$. Həcmi 1.75 ç.v.
Tirajı 100. Sifariş № 30
Qiyməti müqavilə əsasında.

“Elm” RNPM-nin mətbəəsində çap olunmuşdur
(İstiqlaliyyət, 8)